Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Bu gün Azərbaycanın inkişafı yalnız onun paytaxtının hesabına deyil, regionlarının da hesabına baş verir. Artıq gözlə görünən bir faktdır ki, regionlarımızdakı vəziyyət 20 il əvvəllə müqayisədə tamamilə dəyişib. Regionlar sözün əsl mənasında yeni bir simaya malik olublar.**

# Vətən müharibəsindən sonra regionlarımızın inkişafında əsas təzahür - azad rayonların bərpası və köhnə planlar paralel gedir...

Aparılan işlər regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaradıb.

Bu gün regionlarımızın inkişafını şərtləndirən əsas amil odur ki, onlar ölkənin ümumilikdə həyata keçirilən sosial-iqtisadi inkişafı strategiyasından təcrid edilmir. Azərbaycanda regionların inkişafına ölkənin davamlı həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi baxılır. Məhz bu yanaşmanın nəticəsində regionların inkişafı üzrə ayrıca dövlət proqramları hazırlanaraq icra edilir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar davamlı olaraq, bir-birinin ardınca həyata keçirilməkdədir.

Hazırda regionların inkişafı üzrə sayca 4-cü dövlət proqramı icra edilir. Azərbaycan Prezidenti İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023- cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi regionların, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlərin növbəti illərdə də davam etdirilməsi, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsidir.

Ümumilikdə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasına ən azı 17 milyard manatdan çox vəsaitin sərf edilməsi nəzərdə tutulur ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən hazırda icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Eyni zamanda, dövlət tərəfindən təxminən 13 milyard manata yaxın investisiyasının yatırılacağı gözlənilir.

**Müharibə başa çatandan dərhal sonra Azərbaycan bütün istiqamətlərdə lazımi işləri görməyə davam edir**

44 günlük Vətən müharibəsinin nəticələri regionda tamamilə yeni reallıq yaradıb. Bu müharibə yalnız hərbi-siyasi baxımdan deyil, geosiyasi və iqtisadi kontekstdə də yeni situasiya formalaşdırıb. Azərbaycan müharibədə qalib gəlməklə, cənab Prezidentin qeyd etdiyi kimi, regionda yeni təhlükəsizlik formatı yaradılmasına nail olub. Eyni zamanda, yeni iqtisadi əməkdaşlıq perespektivləri yaranıb. Kommunikasiyaların açılması, çoxtərəfli iqtisadi əlaqələrin qurulması regionun həyatında yeni bir mərhələnin başlanılması demək olacaq. Türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın tarixi missiyasıdır. Prezident İlham Əliyevin sözləri ilə desək, "Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir". İşğaldan azad olunmuş torpaqlarımızda yeni avtomobil yollarının salınması, Şuşa şəhərinə "Zəfər yolu"nun çəkilməsi deməyə əsas verir ki, müharibə başa çatandan dərhal sonra Azərbaycan bütün istiqamətlərdə lazımi işləri görməyə davam edir. Nəzərə alsaq ki, həmin torpaqların ərazisi 4 Lüksemburqa bərabərdir. Müqayisə aparmaqla həmin əraziləri təsəvvür etmək mümkündür. Nəzərə almaq lazımdır ki, 4 Lüksemburq boyda ərazini Azərbaycan yenidən inşa etməlidir, çünki mənfur düşmən bütün infrastrukturu məhv edib, dağıdıb. İndi bütün dünya erməni faşizminin hansı vəhşilikləri törətməyə qadir olduğunu öz gözləri ilə görüb. Azərbaycan müharibə nəticəsində ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də erməni faşizmini məhv edib. Şübhəsiz ki, regionlarda həyata keçirilən sosial-iqtisadi layihələr Azərbaycanda investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsinə, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılmasına, işsizlik probleminin həllinə, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir.




**"Ağıllı kənd" məşğulluğun təmin olunması modeli kimi də çox vacib mexanizmlərdən sayılır**

Ona görə də, işğaldan azad olunmuş ərazilərdə normal həyatın qaytarılması və iqtisadi inkişafın bərpa olunması böyük maliyyə vəsaiti tələb edir.

Əlbəttə, dövlət büdcəsindən vəsait ayrılıb, bununla belə, büdcədənkənar vəsaitlərin bu prosesə cəlb olunması böyük əhəmiyyət daşıyır və beynəlxalq maliyyə institutlarının, yerli və xarici investorların və kommersiya banklarının bərpa işlərinə cəlb olunması vacibdir. Bu mənada Qarabağ Dirçəliş Fondunun təsis olunması böyük əhəmiyyət daşıyır. Fondun vəsaitlərinin fiziki və hüquqi şəxslərin ianələri, qrantlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşması işğaldan azad edilmiş rayon, şəhər, qəsəbə və kəndlərdə bərpa-quruculuq işlərinin geniş vüsət alması üçün geniş imkanlar açacaq.

Azərbaycan hökuməti bərpa işlərinin həyata keçirilməsində ağıllı texnologiyalardan da istifadə etməyi planlaşdırır. Bununla bağlı, işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarını həyata keçirəcək. Xatırladaq ki, birinci belə layihə Zəngilan rayonunun Üçüncü Ağalı kəndində reallaşdırılacaq. Prezident İlham Əliyevin iştirakı ilə layihənin icrasına artıq başlanılıb. Kənddə layihənin icrasının 5 komponent üzrə aparılacağı bildirilir.

Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir. Ərazidə tam tədric olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi planlaşdırılır. Həmin kəndlərdə məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu yaradılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər. Prezident İlham Əliyevin sözlərinə görə, belə pilot layihələr çox ola bilər.

Mütəxəssislər "ağıllı kənd" orada məskunlaşacaq əhali üçün kifayət qədər üstünlüklərə malik olduğunu vurğulayırlar və bu modeldən inkişaf etmiş ölkələrdə uzun müddətdir istifadə edilir. Bu konsepsiyanı həyata keçirməklə həm aqrar sektoru inkişaf etdirilir, həm də idarəetmə sistemində elektronlaşmanın və şəffaflığın təmin olunmasına, qərarların çevik qəbul edilməsinə nail olunur. Bundan başqa, "ağıllı kənd" layihəsinin, eyni zamanda, insanlara kənddə pul qazanmaq imkanı da yaradır. Hər bir ölkə vətəndaşının olduğu kimi, kənd sakinlərinin də dövlət xidmətlərinə çıxışı olmalıdır və bütün bu məsələləri həll etmək üçün dünyada innovativ kənd layihələrindən istifadə edilir. "Ağıllı kənd" məşğulluğun təmin olunması modeli kimi də çox vacib mexanizmlərdən sayılır. Həm də məskunlaşma prosesinin intensiv aparılmasına, sistemli şəkildə reallaşmasına imkan verir.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**